# Qəbələ rayonu üzrə 36 abituriyent qəbul imtahanlarında 600-dən çox bal toplayıb

Bu il Qəbələ rayonunun ümumtəhsil məktəblərini bitirən məzunlar ali məktəblərə qəbul imtahanlarında yüksək nəticələr əldə ediblər. Cari ildə Qəbələnin ümumtəhsil məktəblərinin buraxılış imtahanlarında müvəffəqiyyət qazanan məzunların 1419 nəfəri tam orta təhsil kursu üzrə attestat alıb. Məzunların 3 nəfəri orta məktəbi qızıl medalla bitirib. Qəbələli məzunlardan 760 nəfər ali məktəblərə keçirilən qəbul imtahanlarında iştirak edib. Onlardan 424 nəfər tələbə adını qazanıb. Ali məktəblərə daxil olan abituriyentlərdən 36 nəfər 600-dən çox bal toplayıb. Bu ilki imtahanlarda rayonun məzunları arasında ən yüksək nəticəni Mıxlıqovaq kənd tam orta məktəbin məzunu Şirinov Amil Rüfət oğlu əldə edib. O, imtahanlarda 679 bal toplayaraq Qafqaz Universitetinə daxil olub.

Aşağıdakı cədvəldə yüksək bal toplayan məzunlar haqqında məlumat dərc olunur.

## Qəbələ rayonu üzrə 2016-cı ildə ali məktəblərə qəbul imtahanlarında 600-dən çox bal toplayan məzunlar

| Sıra № | Soyadı, adı, atasının adı | Topladığı bal | İxtisas qrupu | Bitirdiyi məktəb | Daxil olduğu ali məktəb |
|---|---|---|---|---|---|
| 1. | Şirinov Amil Rüfət oğlu | 679 | II | Mıxlıqovaq kənd tam orta məktəbi | Qafqaz Universiteti |
| 2. | Zəkəriyyəli Zəkəriyyə Pərviz oğlu | 670 | I | Zarağan kənd 1 nömrəli tam orta məktəbi | Qafqaz Universiteti |
| 3. | Baxşalıyev Bayram Vüqar oğlu | 667 | III | Qəbələ şəhər 4 nömrəli tam orta məktəbi | Bakı Dövlət Universiteti |
| 4. | Cabbarlı Sevinc Eldar qızı | 666 | IV | Həmzəli kənd tam orta məktəbi | Azərbaycan Tibb Universiteti |
| 5. | Muradova Çimnaz Mayıl qızı | 664 | III | Qəbələ şəhər 4 nömrəli tam orta məktəbi | Bakı Dövlət Universiteti |
| 6. | Qurbanova Nigar Arif qızı | 664 | III | Qəbələ şəhər 2 nömrəli tam orta məktəbi | Bakı Dövlət Universiteti |
| 7. | Əzimova Nargilə Bəhram qızı | 657 | III | Aydınqışlaq kənd tam orta məktəbi | Azərbaycan Respublikası Prezidenti Yanında İdarəçilik Akademiyası |
| 8. | Xeyrəddinli Nazənin Mətləb qızı | 655 | IV | Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbi | Azərbaycan Tibb Universiteti |
| 9. | Məmmədli Səbinə Ramiq qızı | 653 | II | Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbi | Azərbaycan Respublikası Prezidenti Yanında İdarəçilik Akademiyası |
| 10. | Ələfsərli Lamiyə Vüqar qızı | 651 | IV | Nohurqışlaq kənd tam orta məktəbi | Azərbaycan Tibb Universiteti |
| 11. | Səmədli Şəhla Mübariz qızı | 651 | I | Nohurqışlaq kənd tam orta məktəbi | Azərbaycan Respublikası Prezidenti Yanında İdarəçilik Akademiyası |
| 12. | Mustafayev Nazim Allahverdi oğlu | 643 | III | Qəbələ şəhər 3 nömrəli tam orta məktəbi | Azərbaycan Respublikası Prezidenti Yanında İdarəçilik Akademiyası |
| 13. | Cavadova Ləman Vəzir qızı | 639 | IV | Yemişanli kənd tam orta məktəbi | Azərbaycan Tibb Universiteti |
| 14. | Məmmədov Fəqan Bəhman oğlu | 638 | II | Qəbələ şəhər 2 nömrəli tam orta məktəbi | Qafqaz Universiteti |
| 15. | Eyvazov Pünhan İkram oğlu | 637 | III | Yemişanli kənd tam orta məktəbi | Bakı Dövlət Universiteti |
| 16. | Hacıyeva Gülnarə Ehtibar qızı | 637 | IV | Həmzəli kənd tam orta məktəbi | Azərbaycan Tibb Universiteti |
| 17. | Qəribli Nübar Nuru qızı | 632 | IV | Nic qəsəbə 4 nömrəli tam orta məktəbi | Azərbaycan Tibb Universiteti |
| 18. | Sadıxov Əli Aslan oğlu | 632 | II | Qəbələ şəhər 4 nömrəli tam orta məktəbi | Azərbaycan Dövlət İqtisad Universiteti |
| 19. | Tahirov Fuad Sərvan oğlu | 631 | I | Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbi | Azərbaycan Dövlət Neft və Sənaye Universiteti |
| 20. | Əsədova Nailə Şirxan qızı | 631 | III | Soltannuxa kənd tam orta məktəbi | Azərbaycan Dillər Universiteti |
| 21. | Kərimova Gülnur Tofiq qızı | 630 | III | Soltannuxa kənd tam orta məktəbi | Azərbaycan Dillər Universiteti |
| 22. | Əzizli Samir Tərlan oğlu | 627 | II | Zarağan kənd 1 nömrəli tam orta məktəbi | Qafqaz Universiteti |
| 23. | Səbzəliyeva Fəridə Faiq qızı | 624 | III | Xırxatala kənd tam orta məktəbi | Qafqaz Universiteti |
| 24. | Əsgərov Orxan Elxan oğlu | 624 | II | Qəbələ şəhər 4 nömrəli tam orta məktəbi | Azərbaycan Respublikası Prezidenti Yanında İdarəçilik Akademiyası |
| 25. | Fərzəliyeva Banu Sahil qızı | 621 | IV | Dizaxlı kənd tam orta məktəbi | Azərbaycan Tibb Universiteti |
| 26. | Məmmədzadə Təranə Pərviz qızı | 619 | III | Zarağan kənd 1 nömrəli tam orta məktəbi | Azərbaycan Dillər Universiteti |
| 27. | Ziyadov Nəsrulla Ruslan oğlu | 618 | I | Qəmərvan kənd tam orta məktəbi | Aviasiya Akademiyası |
| 28. | Rəsulzadə Şəbnəm Fəxrəddin qızı | 618 | IV | Zarağan kənd 1 nömrəli tam orta məktəbi | Azərbaycan Tibb Universiteti |
| 29. | Bağırlı Məhəmməd Elşən oğlu | 614 | II | Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbi | Xəzər Universiteti |
| 30. | Davudova Səbinə Hikmət qızı | 612 | II | Qəbələ şəhər 4 nömrəli tam orta məktəbi | Azərbaycan Dövlət İqtisad Universiteti |
| 31. | Bəkirli İradə Vüqar qızı | 609 | I | Çuxur Qəbələ kənd tam orta məktəbi | Azərbaycan Dillər Universiteti |
| 32. | Ərzimanlı Fəda Bəhram oğlu | 608 | I | Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbi | Xəzər Universiteti |
| 33. | Səfərəliyeva Gültəkin Sadiq qızı | 605 | III | Qəbələ şəhər 2 nömrəli tam orta məktəbi | Bakı Dövlət Universiteti |
| 34. | Abdullayeva Səhranə Ceyhun qızı | 603 | II | Çuxur Qəbələ kənd tam orta məktəbi | Azərbaycan Pedaqoji Universiteti |
| 35. | Hüseynov Heybət Cahangir oğlu | 603 | I | Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbi | Qafqaz Universiteti |
| 36. | Ceyidli Elgün Elşən qızı | 600 | III | Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbi | Polis Akademiyası |

**QEYD:** Cədvəldən göründüyü kimi Qəbələ rayonu üzrə bu il ali məktəblərə qəbul üçün ən yüksək bal toplayan məzunların çoxu Azərbaycan Tibb Universitetinə (8 nəfər), Qafqaz Universitetinə (6 nəfər) Bakı Dövlət Universitetinə və Azərbaycan Dillər Universitetinə (hər birinə 5 nəfər), Azərbaycan Respublikası Prezidenti Yanında İdarəçilik Akademiyasına (4 nəfər) qəbul olunmuşdur. Yüksək bal toplayan 36 mənzunun 28 nəfəri qeyd olunan 5 ali təhsil ocağında oxuyacaqdır. Azərbaycan İqtisad Universitetinə 2 nəfər qəbul olunmuşdur. 6 təhsil ocağının hər birinə isə 1 nəfər qəbul olunmuşdur. Yüksək bal toplayan məzunların yarısı aşağıda qeyd olunan 4 məktəbin yetirməsidir. Vəndam qəsəbə 1 nömrəli (6 nəfər), şəhər 4 nömrəli (6 nəfər), Zarağan 1 nömrəli (4 nəfər) və 2 nömrəli (3 nəfər) tam orta məktəblərindəndir.

**Arifə BAYRAMOVA,**
**rayon təhsil şöbəsi metodkabinetinin müdiri.**

## Aydınqışlaq kənd tam orta məktəbində Bilik Günü qeyd olundu

Sentyabrın 15-i səhər tezdən Aydınqışlaq kənd tam orta məktəbində böyük canlanma vardı. Məktəb bayramsayağı bəzədilmişdi.

Bilik Günü tədbirini məktəbin tərbiyə işləri üzrə direktor müavini Natəvan Əfəndiyeva açıq elan etdi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra söz məktəbinin direktoru Sevil Nəbiyevaya verildi. O, yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə şagirdləri müəllimləri, valideynləri təbrik etdi. Məktəbin uğurlarından çox böyük həvəslə danışdı. Sevil Nəbiyevaya bu il ali məktəblərə 13 nəfər məzunun qəbul olunduğunu, bir məzunun—Nargilə Əzimovanın 657 bal topladığını qeyd etdi. Sonra məktəbin direktoru bu il birinci sinfə daxil olan 30 şagirdə Azərbaycanımız üçün layiqli övladlar olmağı və yüksək təhsil arzuladı. Məktəbin müəllimlərindən Sənani Məmmədov, Nərminə İslamova, Sədrəddin Əliyev birincilərə və bütün şagirdlərə uğurlar arzuladılar.

Toplantıda iştirak edən RİH başçısının Aydınqışlaq kənd inzibati ərazisi üzrə nümayəndəsi Şahin Xancanov, kənd ağsaqqallarından Fikrət Valehov, Aləddin İsgəndərov cıxışlarında şagirdlərə, müəllimlərə uğurlar dilədilər.

İlk zəng çalındı. Şagirdlər sevinclə dərs otaqlarına axışdılar.

**Rəna XANCANOVA,**
**Aydınqışlaq kənd klubunun müdiri.**

## Tarix-diyarşünaslıq muzeyinin ekspozisiyası yenilənir

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi yarandığı gündən tariximizin hər bir səhifəsini olduğu kimi qoruyub saxlamağa, onu təbliğ etməyə və gələcək nəslə ötürməyə çalışır. Xüsusilə, 2500 illik tarixə malik qədim Qafqaz Albaniyasının tarixi diqqət mərkəzindədir. Ona görə də muzeyə gələn ziyarətçilərin, turistlərin sayı müntəzəm olaraq artır. Onlar arxeoloji nümunələrə baxdıqca öz heyrətlərini gizlədə bilmir və bu nümunələri heyranlıqla seyr edirlər.

Qeyd edək ki, muzeydə antik dövrdən bu günə qədər olan dövrü əhatə edən 1400-ə yaxın eksponat var və eksponatların sayı artmaqdadır. Muzeyimizin kollektivi tamaşaçı marağının artdığını nəzərə alaraq fond materiallarından istifadə etməklə ekspozisiyanı vaxtaşırı olaraq yeniləşdirir.

**İlhamə SEYİDOVA,**
**muzeyin kiçik elmi işçisi.**